# ELÇİN İNQİLAB OĞLU ŞİRİNOV – 50



13 mart 2021-ci ildə Azərbaycanın tanınmış neftçi-geofiziki Şirinov Elçin İnqilab oğlunun 50 yaşı tamam olmuşdur.

E.İ.Şirinov 1971-ci il martın 13-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. O, 1987-ci ildə Bakıda 117 saylı orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Geoloji Kəşfiyyat Fakultəsinə daxil olmuş, oranı 1992-ci ildə dağ mühəndisi-geofizik ixtisası üzrə bitirmiş və həmin ildən təyinatla "Xəzərdəniz-neftgeofizika" trestində əmək fəaliyyətinə başlamışdır. O, 1998-ci ilə qədər bu trestin "Neft Daşları Dəniz Mədən Geofiziki" ekspedisiyasında dəstə rəisi vəzifəsində işləmişdir.

1998-2002-ci illərdə o, təhsil aldığı Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "Neft və qaz yataqlarının axtarışı və kəşfiyyatı" kafedrasında müəllim işləmişdir. Pedoqoji fəaliyyəti ilə yanaşı o elmi işlə də məşğul omuş və 2001-ci ildə "Abşeron-Balxanyanı qalxımlar sisteminin neft-qazlılığının sistemli təhlil əsasında qiymətləndirilməsi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, geologiya-mineralogiya elmlər namizədi alimlik dərəcəsi almışdır.

2002-ci ildə o, yenidən istehsalata qayıtmış, ARDNŞ-nin Geofizika və Mühəndis Geologiyası İstehsalat Birliyində geofizik vəzifəsi ilə fəaliyyətə başlamışdır.

O, 2006-cı ilin fevral-sentyabr aylarında Geofizika və Mühəndis Geologiyası İstehsalat Birliyinin bazasında yaradılmış Geofizika və geologiya İdarəsində Texniki İstehsalat şöbəsinin rəisi, 2006-cı ilin sentyabrından 2016-cı ilin fevralınadək isə bu idarədə rəisin birinci müavini vəzifəsində işləmişdir.

Bu illər ərzində o Azərbaycan neft geofizikasının strategiyasının hazırlanmasında, Geofizika və Geologiya İdarəsi üzrə texniki və texnoloji yeniləşmənin gerçəkləşdirilməsində əvəzsiz xidmət göstərmişdir.

Bütün bu keyfiyyətlə yanaşı, Elçin Şirinovun yüksək təşkilatı bacarığı da ARDNŞ-nin rəhbərliyinin diqqətində olmuş və o 2016-cı ildə Geofizika və Geologiya İdarəsinə rəis təyin edilmişdir.

O, GGİ üzrə geoloji-geofiziki işlərin istiqamətlərinin müəyyənləşdirilməsində və həyata keçirilməsində fəal iştirak və rəhbərlik edir.

E.İ.Şirinov Azərbaycanda neft-geofiziki işlərə müvəffəqlə rəhbərliklə yanaşı, Respublika ərazisində yeni neft və qaz yataqlarının axtarışı və kəşfiyyatında, eləcə də əldə edilmiş geofiziki məlumatların dəyərləndirilməsində bilavasitə rəhbər və icraçı kimi də iştirak etmişdir.

Xüsusilə, 2006-cı ildən GGİ-nin rəhbərliyində olduğu dövrdə onun fəaliyyəti olduqca məhsuldar olmuş, o, Respublikanın quru və dəniz ərazilərində yataqların kəşfiyyatı və işlənməsi ilə əlaqədar bir sıra layihələrin həyata keçirilməsinə birbaşa rəhbərlik etmişdir.

O, bir neçə Beynəlxalq konfranslarda elmi məruzələr etmiş, eləcə də xarici ölkələrdə təcrubi-istehsalat xarakterli ezamiyyələrdə olmuşdur.

Qazandığı dərin nəzəri bilik və çoxsahəli istehsalat təcrübəsi geoloji-geofiziki layihələrin gerçəkləşdirilməsilə yanaşı, nəşr olunmuş 20-dən çox elmi əsərin (eləcə də dərs vəsaiti, metodik göstəriş və kitab) müəllifi kimi də o, neftçilər arasında qabaqcıl mövqe tutmuşdur.

E.İ.Şirinov, Azərbaycan Milli Geofizika Komitəsinin, Amerikanın Kəşfiyyatçı Geofizikləri Assosiasiyası Azərbaycan bölməsinin, Azərbaycan Neftçi Geoloqlar Cəmiyyətinin üzvü, "Azərbaycanda geofizika yenilikləri" jurnalının baş redaktorudur.

Onun bilavasitə rəhbərliyi və iştirakı ilə son illərdə XI və XII beynəlxalq geofizika konfransları keçirilmiş, bu konfranslarda o dərin məzmunlu elmi məruzələrlə çıxış etmişdir.

Elçin müəllim öz zəngin həyat və istehsalat təcürbəsini gənclərdən əsirgəməmiş və onların mütəxəssis kimi yetişməsində böyük rolu olmuşdur.

E.İ.Şirinov istehsalat və elmi yaradıcılıqla yanaşı bədii sahədə də qələmini sınamış və onun "Sevgi dənizi" adlı şeirlər kitabı çap olunmuşdur.

O, neft və qaz sənayesindəki xidmətlərinə görə 2017-ci ildə Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev cənabları tərəfindən "Tərəqqi" medalına layiq görülmüşdür.

Adi həyat tərzinə malik olan Elçin müəllim daim ziyalı adını şərəflə qoruyur. O, özünün alicənablığı, yüksək insani keyfiyyəti, xeyirxahlığı ilə istər kollektivdə və istərsə də onu tanıyanlar arasında böyük hörmət qazanmışdır. O, gözəl ailə başçısı, sevimli atadır.

Geofizika və geologiya İdarəsinin rəhbərliyi və əmək kollektivi Elçin müəllimi – Azərbaycanın tanınmış neftçi geofizikini, təcrübəli və zəhmətkeş mütəxəssisi, ən vacibi isə xeyirxah insan və müdrik idarə rəhbərini anadan olmasının 50 illiyi münasibətilə təbrik edir, ona möhkəm can sağlığı və fəaliyyətində yeni-yeni nailiyyətlər arzulayır!